# İctimai maraqlar çərçivəsində ən geniş dövlət aktı...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Azərbaycan dövlətinin ictimai maraqların və vətəndaş məmnunluğunun təmin olunması istiqamətində həyata keçirdiyi siyasət ictimai mühitdə həmrəyliyin gücləndirilməsinə güclü təkan verir. Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Bu baxımdan Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən amnistiya aktı insan hüquq və azadlıqlarına verilən ən yüksək dəyərdir.**



Bildirək ki, Azərbayanda bugünə kimi 13 amnistiya aktı, 70 əfv sərəncamı icra olunub. Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən amnistiya aktı sözün həqiqi mənasında ictimaiyyətin ürəyindən xəbər verir.

Ekspertlərə görə, ulu öndər Heydər Əliyevin mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış etmək, humanizm ideyalarını həyata keçirmək dövlətimizin siyasətinin əsas prioritetlərindəndir. Bir çox ekspertlərə görə, amnistiya aktı hüquqi dəyərlərin təşviqinə və ictimai həmrəyliyin gücləndirilməsinə mühüm töhfə verəcək.

Artıq icrasına başlanan amnistya aktı cəmiyyətimizdə rəğbətlə qarşılanır və minlərlə ailəyə yüksək sevinc hissi bəxş edir. Amnistiya aktının məhkumlar və bütövlükdə cəmiyyətimiz tərəfindən alqışlanır.

Qeyd edək ki, amnistiya aktının elan edilməsi təşəbbüsü ilə Prezident İlham Əliyev çıxış edib. Bu təşəbbüs əsasında Milli Məclis Amnistiya elan edilməsi ilə bağlı qərar qəbul edib.

Amnistiya aktına əsasən, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Sənədə görə, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaq.

Azərbaycan Prezidentinin Milli Məclisə təqdim etdiyi Amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir.

Qərara görə, 5 mindən daha çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən daha çox şəxsin cəzasının azaldılacağı, 7 mindən daha çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

Son günlər qəbul edilmiş amnistiya aktı Azərbaycan dövlətinin humanizm, ədalət və sosial məsuliyyət prinsiplərinə sadiqliyinin növbəti bariz nümunəsidir. Bu mühüm hüquqi sənəd, rəsmi məlumatlara əsasən, minlərlə məhkumu əhatə etməklə, onların ailələri və yaxınları üçün yeni ümidlər yaradır, cəmiyyətə yenidən inteqrasiya baxımından real imkanlar açır.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev mətbuata bildirib ki, amnistiya aktında qadınların, azyaşlı uşaqları olan şəxslərin, yetkinlik yaşına çatmayanların, yaşlıların və əlilliyi olan şəxslərin sosial həssas qruplar kimi nəzərə alınması dövlətin insan mərkəzli siyasətinin aydın göstəricisidir. Ü.Mirzəyev qeyd edib ki, bu yanaşma cəza siyasətində təkcə hüquqi mexanizmlərin deyil, eyni zamanda, mənəvi və etik dəyərlərin də əsas götürüldüyünü nümayiş etdirir.

"Amnistiya aktı yalnız hüquqi prosedur kimi qiymətləndirilməməlidir. Bu qərar dövlətin vətəndaşa olan etimadının, islah və "ikinci şans" fəlsəfəsinin ifadəsidir. Cəzanın əsas məqsədi yalnız cəzalandırma deyil, eyni zamanda, şəxsin islahı, ailə münasibətlərinin bərpası və cəmiyyətə sağlam reinteqrasiyanın təmin edilməsidir.

Bu baxımdan qadınların və uşaqların ailə mühitinə qayıtması, yaşlı və fiziki məhdudiyyətli şəxslərin sosial qayğı ilə əhatə olunması sosial sabitliyin möhkəmləndirilməsinə, ailə institutunun qorunmasına və ümumilikdə ictimai rifahın gücləndirilməsinə xidmət edir",- deyə U.Mirzəyev vurğulayıb.

QHT sədri hesab edir ki, qəbul edilmiş amnistiya aktı hüquqi dövlət prinsiplərinin real həyatda tətbiqinin, ədalət və humanizm balansının qorunmasının mühüm göstəricisidir. "Bu sənəd bir daha sübut edir ki, dövlətin gücü yalnız qanunun sərtliyində deyil, eyni zamanda, mərhəmətində və sosial məsuliyyətində təzahür edir.

Şübhəsiz ki, bu addım cəmiyyətlə dövlət arasında qarşılıqlı etimadın möhkəmlənməsinə, hüquqi dəyərlərin təşviqinə və ictimai həmrəyliyin gücləndirilməsinə mühüm töhfə verəcək"-deyə Ü.Mirzəyev bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüslə "Konstitusiya və Suverenlik İli" münasibətilə icra olunan amnistiya aktı yüzlərlə, minlərlə insanın həyatını dəyişdi, ailələrə tükənməz sevinc bəxş etdi. İctimaiyyət Amnistiya aktını çox mütərəqqi, humanist bir addım olaraq dəyərləndirir.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***